**AZƏRBAYCAN RESPUBLİKASININ İSTEDADLI GƏNC YAZIÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında ədəbi mühiti canlandırmaq və yaradıcı gəncləri bu prosesə daha fəal cəlb etmək məqsədi ilə qərara alıram:

1. «Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 1997-ci il tarixli, 643 saylı Fərmanı ilə istedadlı gənc yazıçılar üçün təyin edilmiş fərdi təqaüdlər iki dəfə artırılsın və hər biri ayda bir milyon manat məbləğində müəyyən edilsin.

2. «Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 1997-ci il tarixli, 643 saylı Fərmanının 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Fərman 1999-cu il dekabrın 1-dən qüvvəyə minmiş hesab edilsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 dekabr 1999-cu il

№ 214